

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 89 (23.501)

*11 iyun 2020-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanın enerji tələbatının əsası bərpa olunan enerji mənbələri hesabına ödənilir

### *Ordubad rayonunun Tivi kəndində yeni su elektrik stansiyası tikiləcək*

Ümummilli liderimiz Heydər Əliyevin xalqın təkidli tələbi ilə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra iqtisadi inkişafın prioritet istiqaməti kimi enerji təhlükəsizliyinin təmin olunması sahəsində kompleks tədbirlər görülmüşdür. Qəbul olunmuş dövlət proqramlarının uğurlu icrası Naxçıvan Muxtar Respublikasında elektroenergetika infrastrukturunun müasir tələblər səviyyəsində qurulmasına səbəb olmuş, enerji təhlükəsizliyi tam təmin olunmuşdur. Muxtar respublikada alternativ və bərpa olunan enerji mənbələrindən səmərəli istifadə, günəş elektrik stansiyalarının qurulması, ən əsası isə hidroenerji potensialının düzgün dəyərləndirilməsi və yeni su elektrik stansiyalarının istifadəyə verilməsi illik enerji tələbatında bu sahənin payını artırmışdır. Vaxtilə idxal hesabına enerji tələbatını ödəyən muxtar respublikada hazırda elektrik enerjisinin geniş ixrac imkanları vardır.





İyunun 10-da – Milli Qurtuluş Günü ərəfəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ordubad rayonunun Tivi kəndinə gəlmiş, burada tikiləcək yeni su elektrik stansiyasının layihəsinə baxmışdır.

Məlumat verilmişdir ki, yeni tikiləcək Tivi Su Elektrik Stansiyası derivasiya tiplidir. Stansiyanın gücü 15,6 meqavat olacaqdır. Gilançaydan qidalanacaq stansiya üçün tənzimləyici bənd, suqəbuledici qurğu, çökəltmə hovuzu, 30 min kubmetrlik su anbarı, derivasiya kanalı, tunel, yükləmə hovuzu və metal boru xətti tikiləcəkdir. İnşaat işləri aparılarkən mühəndis-texniki tələblər tam nəzərə alınacaq, stansiyada sutullayıcı qurğu, aparıcı kanal və balıq keçirən qurğu quraşdırılacaqdır.

Stansiyada hər birinin gücü 7,8 meqavat olan 2 turbin və hər birinin gücü 10 meqavoltamper olan 2 generator qoyulacaq, Biləv Su Elektrik Stansiyasından 110 kilovoltluq bir dövrəli hava elektrik verilişi xətti çəkiləcək, yarımstansiya tikiləcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yeni su elektrik stansiyasının əhəmiyyətini vurğulayaraq demişdir: Muxtar respublikanın illik elektrik enerjisi tələbatı 450 milyon kilovat-saata yaxındır ki, bunun da 230 milyon kilovat-saatdan çoxu alternativ və bərpa olunan enerji mənbələri hesabına istehsal olunur. Bu da muxtar respublikanın illik elektrik enerjisi istehsalının 55 faizə yaxınını təşkil edir. Yeni tikiləcək Tivi Su Elektrik Stansiyasında isə illik 47 milyon kilovat-saat elektrik enerjisi istehsal ediləcəkdir ki, bu da tələbatın 9-10 faizinə bərabərdir. Ona görə də bu stansiyanın tikilməsi mühüm əhəmiyyət daşıyır.



Ali Məclisin Sədri demişdir: Tivi Su Elektrik Stansiyasının layihəsi bir neçə il bundan əvvəl hazırlanıb. Lakin muxtar respublikada bundan əvvəl Biləv və Arpaçay Su Elektrik stansiyaları tikilərək istifadəyə verilmişdir. Rentabelliyi nəzərə alınaraq bu il Tivi Su Elektrik Stansiyasının tikintisinə başlanılır. İnşaat işləri muxtar respublikanın daxili imkanları – büdcəyə qənaət və Dövlət Energetika Xidmətinə yığılan vəsait hesabına həyata keçiriləcəkdir. Stansiya istifadəyə verildikdən sonra muxtar respublikanın illik enerji tələbatının 70 faizə yaxını bərpa olunan enerji mənbələri hesabına ödəniləcəkdir. Bu da elektrik enerjisi istehsalında dəyəri aşağı salacaqdır. Nəticədə, Dövlət Energetika Xidməti əldə olunan vəsaitdən elektroenergetika infrastrukturunun yenilənməsinə, yeni elektrik xətlərinin çəkilməsinə, günəş elektrik stansiyalarının və yarımstansiyaların qurulmasına sərf edəcəkdir.

Ali Məclisin Sədri stansiyanın bünövrəsinə beton qarışığı tökmüş, tikinti işlərinə başlanılması və keyfiyyətə diqqət yetirilməsi barədə tapşırıqlar vermiş, xatirə şəkli çəkdirilmişdir.

## Biləv kəndindəki nasos stansiyası yenidən qurulacaq

Ordubad rayonunda ailə təsərrüfatlarının inkişafı üçün geniş imkanlar yaradılır. Xüsusilə torpaqlardan səmərəli istifadəyə imkan verən irriqasiya sistemlərinin qurulması mühüm əhəmiyyət kəsb edir. Yeni torpaqlar əkin dövriyyəsinə qatılır, suvarma suyuna olan tələbat ödənilir. Bu tədbirlərin davamı kimi rayonun Biləv kəndindəki nasos stansiyası yenidən qurulacaqdır.

İyunun 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov nasos stansiyasının mövcud vəziyyəti ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, yeni nasos stansiyası qurulduqdan sonra Ordubad rayonunun Biləv, Culfa rayonunun Yaycı və Dizə kəndlərinin 640 hektar torpaq sahəsi daimi suvarma suyu ilə təmin olunacaqdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Taxılçılar bu il də bol məhsul götürəcək

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunun məhsuldar torpaqları burada əkinçiliyin müxtəlif sahələrini inkişaf etdirməyə imkan verib. Bölgənin torpaq mülkiyyətçiləri kənd təsərrüfatı ilə məşğul olanlara göstərilən dövlət qayğısından səmərəli istifadə edərək məhsul bolluğu yaradır, bununla həm özlərinin ailə büdcəsini gücləndirir, həm də muxtar respublika iqtisadiyyatına töhfələrini verirlər.

Rayonda inkişaf etdirilən əkinçilik sahələri içərisində taxılçılıq mühüm yer tutur. Bölgənin məhsuldar torpaq sahələri, uzun illərin təcrübəsi və yaradılan şərait bu sahənin inkişafına marağı getdikcə artırır. Bu səbəbdəndir ki, ötən il də taxılçılıqda yüksək göstəricilərə nail olunub. Belə ki, 3524 hektar sahədən 12 min 17 ton buğda, 603 hektar sahədən 1930 ton arpa tədarük edilib.

Bundan ruhlanan taxılçılar cari ilin məhsulu üçün ötən ilin sonlarında 4731 hektar sahədə payızlıq səpin apardılar. Bunun 4273 hektarı buğda, 458 hektarı isə arpadır. Taxılçılar payızdan indiyədək tələb olunan bütün aqrotexniki tədbirləri vaxtlıvaxtında həyata keçirib, zəmilərin suvarılmasına, gübrələnməsinə ciddi önəm veriblər. Çəkilən zəhmət hədər getməyib, bol məhsul yetişdirilib. İyun ayının 15-dən sonra taxılın tədarükünə başlanılacaq.

Min bir zəhmətlə hasilə gətirilmiş məhsulun vaxtında və itkisiz tədarük olunması üçün hazırlıq tədbirləri yekunlaşdırılıb. Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, burada mövcud olan 10 kombayn işlək vəziyyətə gətirilib, bir neçə gün əvvəl aqrolizinq xətti ilə daha bir sahibkar yeni kombayn alıb. Taxıl daşıyacaq texnikalara da baxış keçirilib, ehtiyat hissələri və kifayət qədər yanacaq əldə olunub.



Görülən bu tədbirlər belə deməyə əsas verir ki, Şərur taxılçılarının zəhməti bu il də hədər getməyəcək, elin varı vaxtında və itkisiz tədarük olunacaq.

* * *

Son illər dövlətimiz tərəfindən aparılan meliorativ tədbirlər, torpaq mülkiyyətçilərinə verilən əlavə subsidiyalar, yeni torpaq sahələrinin dövriyyəyə cəlb edilməsi Culfa rayonunda da taxılçılığın inkişafına səbəb olub. Rayon ərazisindəki taxıl zəmilərinin indiki vəziyyəti sahələrdən bol məhsul əldə olunacağından xəbər verir.

Culfa Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, rayonda taxıl biçininə hazırlıq işləri qısa müddət ərzində yekunlaşıb. Taxıl biçini üçün müxtəlif fiziki və hüquqi şəxslərə məxsus, ümumilikdə, 28 kombayn hazır vəziyyətə gətirilib. Bundan başqa, taxıl biçininə cəlb ediləcək taxıldaşıyan avtomaşınlar və qoşqulu traktorlara, presvuran aqreqatlara baxış keçirilib, texnikaların saz vəziyyətdə olması yoxlanılıb, torpaq mülkiyyətçiləri və mexanizatorlarla maarifləndirmə işləri aparılıb, ehtiyat hissə və yanacaq tədarükü görülüb. Texnikaların daim saz vəziyyətdə olması üçün səyyar təmir briqadası yaradılıb.

Verilən məlumatda o da bildirilib ki, biçin zamanı yanğın təhlükəsizliyinin təmin edilməsi, yığılan məhsulun təmizlənməsi üçün xırman yerlərinin hazırlanması, sahə kənarlarındakı yolların hamarlanması və zəruri olan digər tədbirlər həyata keçirilib, taxıl biçininə hazırlıq işləri yekunlaşdırılıb.

Məlumat üçün bildirək ki, rayon ərazisində artıq biçinə başlanılıb və 13,7 hektar ərazidə buğda, 54,8 hektar sahədə arpa biçilib.

**Xəbərlər şöbəsi**

# Baramaqurdunu bəsləməklə təkcə atlaz yox, həm də yüksək gəlir əldə edə bilərik

*Azərbaycanın incisi, Naxçıvanın dilbər guşəsi olan Ordubad qədim tarixi və mədəniyyəti, zəngin ənənələri ilə diqqəti cəlb edir. Bir dəfə bu füsunkar diyarda olarkən qocaman çinarların əhatə etdiyi qədim Qeysəriyyə binasına üz tutdum. Bildiyiniz kimi, bu tarixi tikilidə hazırda Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyi fəaliyyət göstərir. Muzeydəki minlərlə tarix-mədəniyyət nümunələri sırasında bəzi eksponatlar bir çox cəhətdən diqqətimi cəlb etdi. Hansı ki indi onlardan biri haqqında sizə məlumat verəcəyik.*



Bu bəmbəyaz, ipək kimi eksponat Ordubadda tarixən var olan qədim sənətkarlıq nümunəsi kimi gələn qonaqlarda xüsusi maraq oyadır. Bu, ipəkqurdlarının Ordubadın dillər əzbəri olan tut ağaclarının yarpağından hazırladığı baramadır. Həmin təbii məhsul geyimlərimizdə və məişətimizdə ən çox istifadə etdiyimiz ipək parçanın əsasını təşkil edir. Xatırladım ki, bir baramadan 800-1200 metr uzunluğunda sap almaq mümkündür. Bu saplardan isə sonradan ipək parça istehsal edilir.

Mənbələrə nəzər salsaq, görərik ki, baramaçılıq olduqca qədim tarixə malikdir. İpəkqurdundan ipəyin alınması hələ eramızdan əvvəl məlum olub. Arxeoloji qazıntılar bu sənətin, hətta eramızdan 5 min il əvvəl mövcud olduğunu da deməyə əsas verir. Baramaçılıq həm də gəlirli məşğulluq növlərindən biri olub. Bu sahə ipəkçiliyin və xalçaçılığın inkişafında önəmli rol oynayıb. Azərbaycanda ipəkçilik VII əsrdən inkişafa qədəm qoyub. Ölkəmizin əlverişli ərazisi və iqlim şəraiti bu inkişafı təmin edib. Naxçıvan ərazisində günəşli günlərin daha çox olması tut ağaclarının geniş yayılmasına əlverişli şərait yaradır. Buna görə də ölkəmizin digər əraziləri kimi, Naxçıvanda da ipək istehsalı tarixən inkişaf edib. Əbəs yerə deyil ki, XIX əsrdə Rusiyada ipək istehsalı müəssisələri, əsasən, Azərbaycandan alınan barama xammalı hesabına işləyib. Sovetlər İttifaqı dövründə isə ölkəmizdə istehsal olunan ipək parça təkrar emal üçün SSRİ-nin 250 ipək parça kombinatına göndərilirdi. Ötən əsrin 70-80-ci illərində Naxçıvan Muxtar Respublikası, Dağlıq Qarabağ Muxtar Vilayəti və Azərbaycanın 31 inzibatı rayonunda hər il orta hesabla 4-5 min ton barama istehsal olunurdu. Həmin dövrdə Azərbaycan dünyada barama istehsalına görə 8-ci, SSRİ-də isə 2-ci yeri tuturdu. Bütün bunlar nəzərə alınaraq ölkəmizdə bu sahənin yenidən inkişafı istiqamətində işlər davam etdirilir.

Naxçıvanın bölgədə əsas ipək istehsalçılarından biri olması haqqında kifayət qədər tarixi mənbələr vardır. "Naxçıvan tarixi" çoxcildliyinin ikinci cildində də qeyd olunur ki, Naxçıvanın kənd təsərrüfatında vacib sahələrdən biri olan ipəkçiliyin əsas mərkəzi Ordubad sayılırdı. Ordubad İrəvan quberniyasında birinci yerdə dururdu. XIX əsrin 70-90-cı illərində bu əyalətin 46 kəndində baramaçılıq inkişaf etmişdi. Bu kəndlərin 41-də bilavasitə barama istehsalı ilə məşğul olurdular. Ordubad şəhəri, Aşağı və Yuxarı Əylis, Aza, Çənnəb, Vənənd, Əndəmic, Dırnıs, Gənzə, Dəstə, Biləv kəndləri bu sahədə daha çox fərqlənirdi. İpəkçiliyin inkişaf etdirilməsində, əsasən, üç təsərrüfat sahəsi – tut bağları, barama istehsalı və ipəkəyirmə bir-biri ilə vəhdət təşkil edirdi. 1850-ci ildə Ordubad dairəsinin Aşağı Əylis, Dəstə, Biləv, Çənnəb və Ordubad ərazilərində 70 pud 20 girvənkə xam ipək hazırlanmışdı. 1862-ci ilin məlumatına görə, bu ərazilərdən 20 min puda qədər barama hasil edilmişdi. 1885-ci ildə Tiflisdə keçirilən ipəkçilik sərgisində 10 yaxşı ipək məhsulu nümayiş etdirilmiş, ən layiqlilər, o cümlədən Ordubad ipəkçiləri də mükafatlandırılmışdır. 1870-ci ildə Ordubadda 931 pud barama istehsal olunmuşdursa, bu rəqəm 1900-cü ildə 5 min 400 puda çatdırılmışdı. Barama istehsalı başlıca olaraq müxtəlif iri sahibkarların (Məşədi Nəsir, Kazım bəy Əsgərxanov, Kərbəlayı Bağır və başqaları) əlində cəmləşdiyi üçün onlar kənd burjuaziyası kimi formalaşaraq nəinki mərkəzi Rusiyanın iri toxuculuq sənaye müəssisələri ilə, habelə İtaliya, Fransa, Avstriya-Macarıstan kimi Avropa dövlətləri, eləcə də Yaponiya, Rəşt, Xorasan kimi ipəkçilik sahəsində şöhrət tapmış iri ölkə və şəhərlərlə geniş ticarət əlaqələri yaratmışdılar.





Uzun illər bu sahə ilə məşğul olmuş 86 yaşlı Zərri Məmmədova qeyd edir ki, ipəkçilik, barama istehsalı bizim tərəflərin dədə-baba məşğuliyyətləri sırasında olub. Bu, çox gəlirli sahə idi. Hətta ipəyin dəyərini qızıla bərabər hesab edirdilər. Buna görə də tutun atlaz yarpaqlarından ipək sapın hazırlanması əhalinin güzəranı üçün gəlirli sahəyə çevrilmişdi. Vaxtilə ev şəraitində ipək saplar hazırlayıb, hətta parça da toxuyarmışlar. Bu parçalar milli geyimlərimiz, müxtəlif baş örtükləri, örpək, kəlağayı, xalça, cecim və sair sənət nümunələrinə çevrilirdi. İpək və atlaz parçalardan tikilmiş paltarlar, geyimlər Naxçıvan əhalisi üçün xarakterik idi. Lakin iş bununla kifayətlənmirdi. İpək parçalarımız Böyük İpək Yolunun üzərində yerləşən Naxçıvanda karvanların əsas yükü olaraq xarici ölkələrə də göndərilirdi.

Sonralar bu gəlirli sahə daha da inkişaf etdirildi. 1865-ci ildə Ordubad şəhərində ipək fabriki yaradılıb və uzun müddət fəaliyyət göstərib. 1935-ci ildə baramaaçan fabriki yenidən qurulub. 1969-cu ildə ulu öndər Heydər Əliyevin ölkəmizdə hakimiyyətə gəlişindən sonra fabrik tamamilə yenidən qurulub və yeni binada yüksək iş şəraiti yaradılıb. Burada 24 ədəd avtomat baramaaçan dəzgah quraşdırılıb, işçi qüvvəsi və istehsal gücü daha da artırılıb. Məsələn, 1970-ci ildə fabrikdə 860 nəfər işçi çalışıb. Bir il sonra fabrikdə toxucu sexi açılıb. Hər il istehsalı daha da artan bu fabrik 1985-ci ilədək fəaliyyət göstərib. Fabrikin fəaliyyəti kəndlərdə tut ağaclarının sayının da artmasına öz mühüm təsirini göstərmişdi. O illərdə yüzlərlə hektar ərazidə tut bağları salınmışdı.

İpəkçilik ötən əsrin 90-cı illərinin böhranında ən çox tənəzzülə uğrayan ənənəvi təsərrüfat sahələrindən biri oldu. Baramaçılıq və ipək istehsalı unudulmaqda idi. Nəticədə, olduqca qiymətli və sağlamlıq cəhətdən tam keyfiyyətli yerli ipək məhsullarının yerinə mənşəyi bəlli olmayan süni məhsulların idxalı artmağa başladı. Ölkəmiz müstəqillik əldə etdikdən sonra əhalinin əsas məşğuliyyəti hesab olunan gəlirli sahələrin yenidən inkişafına diqqət artırıldı. Xüsusilə son illər atılan mühüm addımlar nəticəsində Azərbaycanda ipəkçilik, eləcə də baramaçılıq yenidən inkişaf etdirilir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə 2017-ci il noyabrın 27-də təsdiqlənən "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nda yaş barama istehsalı həcminin 6 min tona çatdırılması nəzərdə tutulub.

İndi muzeydə maraqlı məhsulun nə üçün mühüm eksponatlar sırasında öz yerini alması tam ifadəsi ilə aydın olur. Deməli, baramaçılıq, ipək istehsalı qədim Ordubadın daha bir şöhrəti imiş. Bu şöhrətin özünə qaytarılması istiqamətində müvafiq işlər görülür. "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda da baramaçılığın inkişaf etdirilməsi də öz yerini aldı və bu istiqamətdə müvafiq işlər görüldü. Uğurla davam etdirilən növbəti dövlət proqramının icrasında da bu sahədə görüləcək işlər müəyyənləşdirilib.

Qeyd etdiyimiz kimi, baramaçılıq birbaşa tut ağaclarının yarpaqları üzərində qurulur. Buna görə də bu sahənin inkişafında tutluq sahələrin genişləndirilməsi də mühüm məsələdir. Bu baxımdan qeyd edə bilərik ki, bu gün muxtar respublikada baramaçılıqla məşğul olmaq üçün hərtərəfli şərait mövcuddur. Diyarımızda aparılan ağacəkmə kampaniyaları, yaşıllaşdırma siyasəti nəticəsində minlərlə hektar əkinəyararsız ərazilərdə, yol kənarlarında geniş meyvə bağları salınır. Bu ağaclar sırasında tut əkininə də geniş yer verilir. Belə sahələr, xüsusilə Ordubad, eləcə də Babək və Şərur rayonlarında daha çoxdur. Bu da baramaçılıq üçün əsas xammaldır.

*Sonda bir məqamı xatırlatmaq istərdim. Dünya bazarında baramanın bir tonu 9-10 min dollara, başqa sözlə, 15-16 min manata satılır. İpək parçanın qiyməti isə bundan, təxminən, 2 dəfə bahadır. Bu isə həm də yüksək ixrac deməkdir. Deməli, baramaqurdunu bəsləməklə təkcə atlaz yox, həm də yüksək gəlir əldə edə, ipək ixracatçısına çevrilə bilərik.*

**Gülcamal TAHİROVA**

# May ayı ərzində əhaliyə keyfiyyətli rabitə xidməti göstərilib



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə rabitə sahəsinin yeni texnologiyalar əsasında inkişafı daim diqqət mərkəzində saxlanılır. Hər il muxtar respublikada rabitə sisteminin təkmilləşdirilməsinə dair yeni layihələr həyata keçirilir.*

Culfa rayonunda Yeni Nəsil Telekommunikasiya Sistemi və Rabitə Evinin istifadəyə verilməsi də göstərilən dövlət qayğısının əyani ifadəsidir. Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada Culfa Rayon Rabitə İdarəsi, İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin Culfa rayon filialı, "Naxtel" müştəri xidmətləri və "Naxçıvanpoçt" publik hüquqi şəxsin Culfa rayon filialının fəaliyyətləri üçün lazımi iş şəraiti yaradılmışdır. Bunlarla yanaşı, Şərur rayonunun Muğancıq-Mehrab və Məmmədsabir Kənd mərkəzlərində yeni rabitə evləri istifadəyə verilmişdir. Həmçinin muxtar respublika üzrə mövcud avtomat telefon stansiyalarının nömrə tutumlarının artırılması nəticəsində 180 ədəd yeni telefon nömrəsi abonentlərin istifadəsinə təqdim olunmuşdur.

Muxtar respublikada əhalinin keyfiyyətli internetlə təminatı da diqqət mərkəzində saxlanılmış, 891 abonent genişzolaqlı ADSL (Asimmetrik Rəqəmsal Abunəçi Xətti) texnologiyası vasitəsilə internetlə təmin olunmuşdur. Bu da muxtar respublikada rabitə əlaqələrinin tam kəsintisiz həyata keçirilməsində, elektron hökumət, genişzolaqlı internet, 4-cü nəsil xidmətlərin və digər informasiya-kommunikasiya texnologiyaları layihələrinin icrasında xüsusi əhəmiyyət daşıyır.

Muxtar respublikada rabitə və yeni texnologiyaların tətbiqi və inkişafı istiqamətində işlər bundan sonra da davam etdiriləcək, əhaliyə keyfiyyətli rabitə və internet xidmətləri göstəriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

# Muxtar respublikada əmək pensiyalarının maliyyələşdirilməsi başa çatdırılmışdır

*Muxtar respublikada sosial-iqtisadi sahədə həyata keçirilən məqsədyönlü islahatlar yeni istehsal sahələrinin və iş yerlərinin açılmasına, məşğulluq səviyyəsinin yüksəlməsinə, müasir infrastrukturun yaradılmasına səbəb olmuşdur. İqtisadi sahədə qazanılmış nailiyyətlər sosial müdafiə tədbirlərinin də əhatə dairəsinin genişlənməsinə və keyfiyyətinin daha da yaxşılaşmasına müsbət təsir göstərmişdir.*

Əhalinin həssas qrupuna daxil olan əmək pensiyaçılarının rifah halının yüksəldilməsi ilə bağlı tədbirlərin muxtar respublikamızda müvəffəqiyyətlə icrası da daim diqqət mərkəzində saxlanılır. Onlara göstərilən xidmətlərin operativliyinin təmin olunması məqsədilə müxtəlif layihələr uğurla icra olunur.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu bu istiqamətdə öz üzərinə düşən tapşırıqların yüksək səviyyədə icrası üçün mütəmadi olaraq işlər görür. Belə ki, fond Milli Qurtuluş Günü ərəfəsində iyun ayının pensiyalarının maliyyələşdirilməsi sahəsində işləri başa çatdırmışdır. Görülmüş tədbirlər nəticəsində pensiyaçılara bütün növ əmək pensiyalarının ödənilməsi təmin olunmuşdur. Pensiyalar plastik bank kartları, kənd yerlərində yaşayan pensiyaçıların isə istəkləri nəzərə alınaraq poçt bölmələri vasitəsilə ödənilmişdir. Həmçinin əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinətlərin vaxtlı-vaxtında maliyyələşdirilməsi üçün də müvafiq tədbirlər həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu pensiya və müavinətlərin hər ay vaxtında ödənilməsi və pensiyaçıların pensiyalarını rahat şəkildə alması üçün müvafiq işləri bundan sonra da davam etdirəcək.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# Abonentlər fasiləsiz təbii qazla təmin olunur

Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında yaşayış məntəqələrinin və istehsalat sahələrinin təbii qazla təminatını həyata keçirmək üçün Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində təsdiq olunmuş iş planına əsasən ardıcıl tədbirlər görülür. Muxtar respublikanın şəhər və rayon ərazilərindən may ayında daxil olan müraciətlərə əsasən 2 mənzil (ev) qazlaşdırılmışdır.

Naxçıvan şəhərində mexaniki qaz sayğaclarının smartkarttipli qaz sayğacları ilə əvəz olunması istiqaməti üzrə işlər davam etdirilmiş, 1 iyun 2020-ci il tarixə cəmi 20 min 230, o cümlədən cari ilin may ayında 63 qaz sayğacı quraşdırılmışdır. Bu işlər davam etdirilir.

Ötən ay Qaz İstismar Xidmətinə tabe şəhər, rayon qaz istismar idarələrinin qəza-dispetçer sahələrinin 24 saat aktiv olan ***104*** nömrəli qaynar xəttinə təbii qaz istehlakçılarından qaz sızması, qaztənzimləyicilərin nizamlanması, elektron sayğacların kilidə düşməsi və qəza-bərpa işlərinə görə ümumi 813 çağırış daxil olmuşdur. May ayında muxtar respublika qaz şəbəkəsində 526 qaz sızması aşkarlanmış, texniki istismar və təhlükəsizlik qaydalarının tələblərinə müvafiq bu sızmalar aradan qaldırılmışdır.

Naxçıvan Muxtar Respublikasında may ayında yeni qaz boru xətlərinin quraşdırılması, yenidənqurma, abadlıq işlərinin görülməsi zamanı qaz boru xətlərinin yerinin dəyişdirilməsi, yaşayış binalarında təmir- tikinti, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işlərinin görülməsi ilə əlaqədar müxtəlif diametrli polietilen və dəmir borulardan istifadə olunmuşdur.

Muxtar respublikada yerli qaz istismar idarələrinin işçiləri tərəfindən qaz cihazlarından təhlükəsiz istifadə qaydaları haqqında abonentlər arasında maarifləndirmə və izahat işi aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti***

*Təhsil millətin gələcəyidir*

# Göstərilən dövlət qayğısı innovativ layihələrin tətbiqinə geniş imkanlar açmışdır

***Bu gün təhsil quruculuğu, təhsilin müasir tələblər səviyyəsində inkişafı muxtar respublikamızda aparılan uğurlu siyasətin əsas prioritet istiqamətini təşkil edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində diyarımızda müasir təhsil infrastrukturu yaradılıb, orta, orta ixtisas və ali təhsil, həmçinin elm müəssisələri üçün müasir tələblərə cavab verən binalar tikilib, həmin obyektlərin maddi-texniki bazaları gücləndirilib.***







Təhsil siyasətinin əsas istiqamətlərindən birini də muxtar respublikada ixtisaslı kadr hazırlığı təşkil edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamı ilə yüksəkixtisaslı kadr hazırlığı və innovasiyaların yaradılması istiqamətində yeni vəzifələr müəyyənləşdirilmişdir. Bu sərəncam hami təşkilatlar və təhsil müəssisələri arasında əlaqələri genişləndirməklə yanaşı, insan kapitalının inkişafına xidmət etmiş, kreativ düşüncəli yeni nəslin formalaşmasına, gənclər tərəfindən irəli sürüləcək yeni startap layihələrin dəstəklənməsinə öz müsbət təsirini göstərmişdir. Adıçəkilən sərəncam təhsilin inkişafında yeni mərhələnin əsasını qoymuş, təhsil müəssisələrində yaradıcı düşüncə və inkişafa xidmət edən layihələrin hazırlanmasına geniş imkanlar açmışdır. Bunun nəticəsidir ki, muxtar respublikada təhsilin inkişafı, innovativ tədris üsullarının tətbiqi istiqamətində bir sıra layihələr icra olunur.

Naxçıvanda elektron təhsilin tətbiqini genişləndirmək, təhsil müəssisələrində virtual tədris mühiti formalaşdırmaq, tədrisin əyaniliyini və səmərəliliyini artırmaq da diqqət mərkəzindədir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2014-cü il 20 iyun tarixdə "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalamışdır. Bu sərəncam təhsil sahəsində interaktiv əlaqələrin təşkilində, distant təhsilin reallaşdırılmasında uğurların qazanılmasına şərait yaratmışdır.

Sərəncamdan irəli gələn vəzifələrin icrası istiqamətində həyata keçirilən tədbirlər nəticəsində muzeylərlə, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi, Naxçıvan Şahmat Mərkəzi və Naxçıvan Muxtar Respublikası Ekoloji Tərbiyə Mərkəzi ilə interaktiv dərslər keçilmiş, məktəblərlə virtual əlaqə yaradılmış və şagirdlərin əyani şəkildə Azərbaycanın tarixi və mədəniyyətinə, milli-mənəvi irsimizə və digər mövzulara aid biliklərinin artırılması təmin edilmişdir. Həmçinin interaktiv dərslər vasitəsilə məktəblilər görkəmli şəxslərin həyat və yaradıcılığı ilə ətraflı şəkildə tanış olmaq imkanı əldə etmişlər. İnteraktiv dərslər şagirdlərin biliklərinin artmasına əsaslı şəkildə təkan vermişdir.

"Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin təşkili haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 mart tarixli Sərəncamına əsasən ali və orta ixtisas təhsili müəssisələrinin elmi dərəcəsi və elmi adı olan alimlərinin iştirakı ilə muxtar respublikanın ümumtəhsil məktəblərində təşkil edilən nümunəvi dərslər isə həmin müəllimlərlə ümumtəhsil müəssisələri arasındakı əlaqələri gücləndirir, şagirdlərdə tədris olunacaq fənlərə qarşı yeni yanaşma aşılayır, onların gələcək peşə seçimlərində düzgün qərar vermələrinə müsbət təsir göstərir. Həmçinin ümumtəhsil məktəblərində nümunəvi dərslərin təşkili yeni, gərəkli və davamlı proses olmaqla, təhsildəki sistematikliyin və ardıcıllığın möhkəmlənməsinə, qarşılıqlı əlaqələrin, təcrübə mübadiləsinin daha da dərinləşməsinə, şagirdlərin hərtərəfli hazırlığına layiqincə xidmət göstərir.

Məktəbin pedaqoji və şagird kontingenti ilə əlaqələrin gücləndirilməsinə, keçilən dərslərin daha da maraqlı təşkil olunmasına geniş imkan yaradan nümunəvi dərslər tədrisdə yeni keyfiyyətlərin qazanılmasına, müəllim və şagirdlərin qarşılıqlı fikir mübadiləsində birgə iştirakına, fərqli dərs mühitinin yaradılmasına mühüm töhfələr vermişdir. Təkcə 2019-2020-ci tədris ilində 917 saat nümunəvi dərs tədris edilmişdir ki, belə dərslərin təşkilində elmlə təhsil arasında əlaqənin genişləndirilməsi, məktəblilərin elmə marağının artırılması üçün mövzuların seçimi diqqətdə saxlanılmış, yuxarı sinif şagirdlərində ali təhsil müəssisələri ilə bağlı ilkin təsəvvürün formalaşmasına, şagirdlərin elmi araşdırma məsələləri üzərində işləməyə həvəsləndirilməsinə səy göstərilmişdir.

Yuxarı sinif şagirdlərində elmə və ixtisas biliklərinə maraq aşılanması, elmi tədqiqatçılıq vərdişlərinin formalaşmasında "Sabahın tədqiqatçıları" layihəsinin də mühüm əhəmiyyəti vardır. Bu layihə təhsil müəssisələrinin IX-XI siniflərində təhsil alan şagirdlərin elmi axtarışlara sövq edilməsinə, onların elmi və yaradıcılıq fəaliyyətlərinin stimullaşdırılmasına, intellektual potensiallı məktəblilərin aşkar edilməsinə xidmət edir. AMEA Naxçıvan Bölməsi ilə birgə keçirilən layihə çərçivəsində alimlər tərəfindən xüsusi istedad və qabiliyyəti ilə fərqlənən şagirdlər elmi himayəyə götürülmüş, onlarla birgə müəyyən edilmiş istiqamətlərdə tədqiqatlar aparılmışdır. Qısa zaman ərzində tətbiq olunmasına baxmayaraq, layihə çərçivəsində şagirdlərimiz bir sıra uğurlar əldə etmişlər. Belə ki, layihə çərçivəsində bu günədək, ümumilikdə, 6 fərqli layihə üzrə 8 şagird ölkədaxili və beynəlxalq müsabiqələrdə iştirak edərək müxtəlif yerlərə layiq görülmüşdür. Onlardan 2-si "Sabahın alimləri" IX Respublika müsabiqəsində 3-cü yerin qalibi olmuş, digərləri isə Rusiyanın müxtəlif şəhərlərində keçirilən yarışlarda müvafiq yerləri tutmuşlar.

Muxtar respublikada innovativ təcrübəli müəllim kadrların hazırlanmasına xidmət edən "Sabahın müəllimi" layihəsi çərçivəsində isə pedaqoji profilli ixtisaslarda təhsil alan tələbələrə təhsildəki yeniliklər haqqında məlumat verilir, ümumtəhsil məktəblərində pedaqoji təcrübələrin təşkilinə xüsusi diqqət yetirilir, ixtisaslı kadr hazırlığını yaxşılaşdırmaq məqsədilə ali təhsil müəssisələrinin dərslik və metodik vəsaitlərlə təmin olunması diqqətdə saxlanılır, sabahın müəllimlərinin innovasiyaya və dayanıqlı inkişafa əsaslanan, yaradıcı düşüncəni əks etdirən yeni layihələri (startaplar) dəstəklənir, məzunlar ümumtəhsil müəssisələrində olan vakansiyalar və işə qəbul qaydaları ilə tanış edilir, dərslik və metodik vəsaitlərin müzakirələrində iştirak edir, müəllim təcrübəsi paylaşılır.

Ötən tədris ilindən tətbiq edilən "Sabahın müəllimi" layihəsi ali məktəblərdə ixtisaslı kadr hazırlığına, bunun da nəticəsində ümumtəhsil məktəblərinin daha peşəkar, innovativ təcrübə əldə etmiş müəllimlərlə təminatına öz töhfəsini verməkdədir. Təhsil Nazirliyi hamiliyə verilmiş pedaqoji profilli ixtisaslarda oxuyan tələbələrlə bir sıra tədbirlər təşkil etmiş, onların ümumtəhsil məktəblərində təcrübə keçmələrinə şərait yaratmışdır.

Təhsilə göstərilən dövlət qayğısının nəticəsidir ki, ümumtəhsil müəssisələri ilə yanaşı, məktəbdənkənar tərbiyə müəssisələrində uşaqların asudə vaxtlarının səmərəli təşkili, onların istedad və bacarıqlarının üzə çıxarılması, yaradıcılıq qabiliyyətlərinin genişləndirilməsi üçün zəruri şərait yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə cari tədris ilində Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində 12 adda yeni innovativ dərnəklər – Robotexnika, Memarlıq-dizayn, Mental aritmetik, Sürətli oxu, Dulusçuluq, Xalçaçılıq, Metal üzərində bədii döymə, Ağac üzərində oyma, Ebru sənəti, Qum sənəti, Dram və Gimnastika dərnəkləri fəaliyyət göstərir ki, həmin dərnəklər də zəruri avadanlıqlarla təchiz edilmişdir.

Uşaqların bilik və bacarıqlarının aşkarlanaraq daha da təkmilləşdirilməsində dərnəklərin böyük rolu var. Bu il Ali Məclis Sədrinin tapşırığına əsasən Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə Robotexnika və Mental aritmetik, Şərur rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində Rəqs, Rəsm, Xalçaçılıq, Bijuteriya, Ebru sənəti, Toxuculuq, İngilis dili, Texniki Yaradıcılıq Mərkəzində Robotexnika, Mental aritmetik, Ağac üzərində oyma, Ağac üzərində yandırma, Bədii tikmə, Qum sənəti, Metal üzərində bədii döymə, Turizm-Diyarşünaslıq Mərkəzində isə Dulusçuluq və Heykəltəraşlıq dərnəkləri yaradılmışdır. Dərnəklərin yaradılması şagirdlərin asudə vaxtlarını səmərəli keçirmələrində və biliklərinin artırılmasında çox böyük rol oynayır.

Ali Məclis Sədrinin tapşırığı əsasında "İstedadlı şagirdlər" albom-kataloqunun nəşr olunması isə muxtar respublikada istedadlı şagirdlərə göstərilən dövlət qayğısının daha bir təzahürüdür. Albom-kataloqda, ümumilikdə, innovativ dərnəklərin üzvlərindən 67 şagirdin dulusçuluq, metal üzərində bədii döymə, ağac üzərində oyma, toxuculuq, bədii tikmə kimi müxtəlif yaradıcılıq nümunələri yer almışdır.

Muxtar respublikada uşaqların yalnız tədris prosesindəki fəaliyyəti deyil, eyni zamanda asudə vaxtlarının səmərəli təşkili, yaradıcılıq mühitində böyüməsi, intellektli və sağlam yetişmələri də diqqətdə saxlanılır. "Dərsdən sonra" və "Həftəsonu" layihələri də məhz uşaqların asudə vaxtının və tərbiyəsinin düzgün təşkilinə, onların intellektual inkişafı və istedadlarının üzə çıxarılmasına xidmət edir.

Təhsildə innovativ layihələrin tətbiq edilməsi müasir təhsilin təkamülündə özünü doğruldan, geniş və çoxcəhətli təşəbbüs və yenilikləri əks etdirən, təlimin bütün forma və vasitələrinin inkişafına pozitiv təsir göstərən yeniləşmə tendensiyasıdır. Muxtar respublika təhsilində də keçirilən innovativ layihələr iştirakçıların xüsusi fəallığına səbəb olmuşdur. Heç şübhəsiz ki, təhsil sistemində aparılan keyfiyyət dəyişikliklərinin əyani nümunəsi kimi inkişaf və innovasiya xarakterli layihələrin, müsabiqələrin həyata keçirilməsi təhsilalanların və təhsilverənlərin potensiallarının inkişafına stimul verəcək. Muxtar respublikada yaradılmış müasir təhsil infrastrukturu bu sahəyə göstərilən dövlət qayğısının nəticəsində mümkün olmuşdur. Bütün bunlar gələcəkdə də təhsilin inkişafına xidmət edəcək yeni layihələrin həyata keçirilməsinə geniş imkanlar açır.

**Ülviyyə HACIYEVA**

## Buraxılış imtahanı keçirilib



Dünən Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə Heydər Əliyev adına Hərbi Liseyin sonuncu kursunda təhsil alan kursantlar üçün buraxılış imtahanı keçirilib. Bir mərhələdə keçirilən imtahanda liseyin 188 kursantı iştirak edib. Kursantlar binaya daxil olarkən buraxılış vərəqəsini, şəxsiyyəti təsdiq edən sənədin aslini, sağlamlıq haqqında bəyannaməni təqdim ediblər.

İmtahanın təşkili və gedişi zamanı karantin rejiminin tələblərinə ciddi riayət olunub.

Yüksək səviyyədə təşkilatçılıq məqsədilə imtahandan 1 gün əvvəl nəzarətçilərlə videobağlantı vasitəsilə seminar keçirilib.

Qeyd edək ki, məktəb binasındakı 16 zalda keçirilən imtahanların idarə olunmasına 1 ümumi imtahan rəhbəri, 2 imtahan rəhbəri, 21 nəzarətçi-müəllim cəlb edilib. Sualları cavablandırmaq üçün kursantlara 3 saat vaxt ayrılıb.

İmtahan zamanı kursantlara Azərbaycan dili fənni üzrə 30, riyaziyyat fənni üzrə 25, xarici dildən isə 30 olmaqla, ümumilikdə, 85 sual təqdim edilib. Qəbul imtahanında abituriyentlərin toplaya biləcəyi maksimal göstərici hər fənn üzrə 100 bal olmaqla, cəmi 300 baldır.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## "Şanlı tarixim" adlı sərgi

***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş "Şanlı tarixim" adlı sərgi təşkil olunub.***



Tədbirdə Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, əsası 1993-cü il 15 iyun tarixdə qoyulan milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, regionda və dünyada Azərbaycanın nüfuzu daha da artır.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov çıxış edərək bildiriblər ki, görkəmli dövlət xadimi Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaradıb. Dahi şəxsiyyətin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son qoyuldu, ölkəmiz xaosdan, siyasi çəkişmələrdən, sosial-iqtisadi böhrandan xilas oldu. Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini heç bir zaman unutmur və 15 İyun – Milli Qurtuluş Gününü hər il yüksək əhval-ruhiyyə ilə qeyd edir.

Sonra sərgiyə baxış olub. Səyyad Bayramovun "Ulu öndər", "Qabil Orucəliyev", Həsən Qurbanovun "Payız" və digər rəsm əsərləri maraqla qarşılanıb.

Qeyd edək ki, 14 rəssamın 28 əsərinin nümayiş olunduğu sərgi bir neçə gün davam edəcək.

**✍ Telli MƏMMƏDOVA**

## Onlayn konsert maraqla qarşılanıb



İyunun 10-da Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Musiqi Kollecinin "Gənclik" İnstrumental Ansamblının canlı yayımla konserti olub. Konsert proqramında Azərbaycan bəstəkarlarının yaradıcılığından və muğam sənətimizdən nümunələr səsləndirən ansamblın bədii rəhbəri musiqi kollecinin müəllimi Sahil Qasımovdur.

Onlayn konsertdə ansamblın solistləri İlkin Abdullayev və Samir İsmayılov Azərbaycan bəstəkarlarının mahnılarını, "Bayatı-Şiraz" təsnifini ifa ediblər. Qeyd edək ki, ansamblın ifasında musiqisevərlər üçün maraqlı musiqili kompozisiya da təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə təqdim edilən növbəti onlayn konsert proqramı da Naxçıvan Dövlət Televiziyasında və Mədəniyyət Nazirliyinin rəsmi internet resurslarında canlı olaraq yayımlanıb. Konsert böyük izləyici sayı ilə maraqla qarşılanıb və təqribən, bir saata yaxın davam edib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*Ölkəmizdə bütün sahələrdə olduğu kimi, idman sahəsində də qazanılan uğurların sayı ilbəil artır. Bunu təşkil olunan beynəlxalq səviyyəli yarışlarda, idmançılarımızın hər il müxtəlif idman növləri üzrə keçirilən dünya və Avropa çempionatlarında, beynəlxalq turnirlərdə əldə etdikləri qələbələr bir daha təsdiq edir. Belə müvəffəqiyyətlərə sahib olmağın başlıca səbəbi isə idmançılarımıza mənəvi və maddi dəstəyin verilməsidir. Bu gün göstərilən dövlət qayğısının nəticəsi olaraq Azərbaycan həm də dünyanın idman ictimaiyyəti tərəfindən ciddi tərəfdaş, idmançılarımız isə əsas rəqib kimi qəbul olunurlar.*

*İdman*

# Gənclərin tennis idman növünə marağı artır

## *Buna muxtar respublikada yaradılan şərait böyük stimul verir*

Naxçıvan Muxtar Respublikasının da idman sahəsində əldə etdiyi nailiyyətlər beynəlxalq idman təşkilatlarının diqqətindən yayınmayıb, məhz onların istəyi ilə son illərdə diyarımızda saysız-hesabsız mötəbər beynəlxalq turnirlər, dünya və Avropa çempionatları keçirilib. Naxçıvanda idmanın inkişafına olan qayğının tək olimpiya idman növlərini deyil, qeyri-olimpiya idman növlərini də əhatə etməsi isə alqışlanası haldır. Muxtar respublika rəhbərinin diqqəti sayəsində belə idman növləri ilə məşğul olan idmançılarımızın beynəlxalq yarışlarda iştirakı daim təmin edilir, onları gələcək qələbələrə ruhlandırmaq üçün müxtəlif stimullaşdırıcı tədbirlər görülür. Bu isə idmanın inkişafına böyük təkan verməklə yanaşı, minlərlə yeniyetmə və gəncin sağlam ruhda tərbiyə olunmasına şərait yaradır. Son illər muxtar respublikamızda idman bölmələrinə axın kütləvi xarakter alıb, rayon və kəndlərdə müasir standartlara cavab verən idman kompleksləri, stadionlar, zallar tikilərək idmançıların ixtiyarına verilib.

İdman insanları fiziki cəhətdən sağlam, mənəvi cəhətdən güclü edir. Nəzərə alsaq ki, idmanla peşəkar səviyyədə məşğul olan insanların əksəriyyəti gənclərdir, idmana qayğı, onun kütləviliyi həm də gənclərin inkişaf etdirilməsi sahəsində həyata keçirilən böyük əhəmiyyətə malik işdir. Bu baxımdan muxtar respublikamızda gənclərin inkişafını nəzərdə tutan dövlət proqramlarında idman da prioritet olaraq müəyyənləşdirilir.

Cari il fevralın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxış edərək deyib: ***"Bədən tərbiyəsi və idman insanın hərtərəfli inkişafını, sağlam həyat tərzini təmin edir, əhalinin əmək qabiliyyətini yüksəldir, uzunömürlülüyü artırır, zərərli vərdişlərin qarşısını almaqla gəncləri fiziki və mənəvi cəhətdən Vətənin müdafiəsinə hazırlayır. Naxçıvan Muxtar Respublikasında əhalinin sağlam həyat tərzinin, xüsusən də böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafının təmin edilməsində bədən tərbiyəsi və idmanın roluna böyük əhəmiyyət verilir. Yaradılan şərait idmanın kütləviliyinə, muxtar respublikamızda beynəlxalq və ölkə səviyyəli yarışların keçirilməsinə şərait yaradır".***

Bu gün muxtar respublikada yeni idman obyektlərinin tikilməsi davamlı xarakter alıb. Belə idman qurğularından biri də yeni istifadəyə verilən Sahil Parkındakı tennis kortudur. Kortun uzunluğu 34, eni isə 28 metrdir. 12 metr uzunluğu olan tennis torunun hündürlüyü isə 91 santimetrdir. Kortun ətrafı işıq lampaları ilə əhatələnib. Eyni zamanda insanların tennislə məşğul olmaları üçün kort 2 top səbəti, 69 tennis topu və 8 tennis raketkası ilə təmin edilib.

İki nəfər və yaxud hərəsində iki nəfər olan iki komanda arasında oynanılan tennisin əsas qaydaları ondan



ibarətdir ki, hər bir oyunçu verilmiş topu rəqibinə tərəf elə atmalıdır ki, rəqibi topa cavab zərbəsi vura bilməsin. Belə zərbələr zamanı top ağ cizgi ilə işarələnmiş zonaya düşməlidir. Sözügedən rezin topu rəqib tərəfə vurmaq üçün hər oyunçu yalnız tennis oyununa məxsus olan xüsusi raketkalardan istifadə edir. Bütün dünyada məşhur olan bu oyun 1896-cı ildən etibarən olimpiya oyunlarının proqramına daxil edilib.

Tennisdə rəqiblər 3 müxtəlif növdə (ot, torpaq və sintetik) olan və kort adlanan meydanda mübarizə aparırlar. Dördbucaqlı formada olan meydan bərabər ölçüdə iki hissəyə bölünür. Qaydalara əsasən meydanın ayrı-ayrı hissələrində bir-birinə rəqib olan oyunçular top onun sahəsində yerə bir dəfədən çox dəymək şərtilə rəqibindən xal almağa çalışmalıdır. Bir qədər çətin olsa da, topu yerə dəymədən də raketka ilə vurmaq olar. Ən yaxşı üsul cəld tərpənərək gələn topu elə havada zərbə vurmaqla qarşı tərəfə yollamaqdır. Tennis oyununda oyunçular xallara əsasən geym ("game" ingilis sözüdür, tərcüməsi oyun deməkdir) qazanmaq üçün mübarizə aparırlar. Bir geym üçün 4 dəfə xal qazanmaq lazımdır. Tennisdə xal qazanmaq sistemi 15-30-40-geym düsturuna əsasən gedir. Yəni 4 xal sizin hesabınıza 1 geym verəcək. Əgər digər oyunçu ilə xal fərqi 1 olarsa, onda siz geym udmaq üçün daha artıq



1 xal qazanmalısınız. İlk 6 geym udan oyunçu set qalibi sayılır. Əgər rəqib oyunçu 4-dən çox geym udubsa, onda digər oyunçu set qazanmaq üçün 7 geym udmalıdır. Oyunun qalibi olmaq üçün isə 6 set qazanmaq lazımdır. Əgər setlərdə hesab 5:5 olarsa, onda oyunçunun qalib gəlməyi üçün ardıcıl olaraq 2 dəfə geym udması kifayətdir. Bütün bu komponentlərdə rəqibindən tez davranan oyunçu qalib olacaq. Hakimin əsas vəzifəsi topun sahəyə və ya sahədən kənara düşməsini müəyyənləşdirməkdir. Tennisdə ən maraqlı məqam isə oyunçunun hakimə etiraz bildirməsi, ümumiyyətlə, "ağzını açıb" söz deməsi qəti olaraq qadağandır. Burada belə hərəkətə görə nəinki hakim, rəsmi qurumlar oyunçunu ciddi şəkildə cəzalandıra bilər.

Sahil Parkında yaradılan kortda stolüstü tennisə marağı olan insanlar üçün də 4 ədəd tennis masası quraşdırılıb. Onu da xüsusi vurğulamaq lazımdır ki, bu gün muxtar respublikamızın bütün şəhər və rayonlarında bu idman növünə maraq həddindən artıqdır. Bunun nəticəsidir ki, hazırda Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində "Əlincə" stolüstü tennis klubu fəaliyyət göstərir. Klubda oğlan idmançılarla yanaşı, qızların da tennislə maraqlanması diqqətdən yayınmır. Eyni zamanda muxtar respublikada fəaliyyət göstərən universitet və kolleclərin, tam orta məktəblərin nəzdində 700-ə yaxın uşaq, yeniyetmə və gənc bu idman növü ilə məşğul olur.

Stolüstü tennisin qaydalarına gəlincə, XX əsrin əvvəllərində yaradılan bu oyun uzunluğu 2,74 metr və eni 1,525 metr olan düzbucaqlı stol üzərində oynanılır. Mərkəzi ağ xətt ilə 2 eyni hissəyə ayrılan tennis masasında 15 santimetr hündürlüyündə tor olur. Bu oyun diametri 40 millimetr olan topla oynanılır. Oyunçuların istifadə etdiyi raketka hər cür formada, ölçüdə və çəkidə ola bilər, lakin taxtanın əsas oynanılan hissəsi hamar və bərk, raketkanın əsas hissəsi isə rezin ilə örtülü olmalıdır. Görüşün əvvəlində və ya oyun zamanı raketkanı dəyişdikdə idmançı öz raketkasını rəqibinə və aparıcı hakimə göstərməlidir. Topu oyuna daxil edən zaman əl tam açıq



vəziyyətdə, top əlin içində sərbəst olmalıdır. Top 16 santimetrdən az olmayaraq yuxarı atılır və raketka topa dəydikdən sonra birinci topu daxil edən idmançının öz hissəsinə, sonra isə rəqib hissəyə dəyməlidir. Rəqib topu oyuna düzgün daxil və ya qəbul etmədikdə, oyunçu topa mane olduqda, rəqib topa iki dəfə vurduqda, top tora dəyərək rəqib stola dəymədən yerə düşdükdə, rəqib hissəyə top dəydikdə xal hesablanır. Hissələr 11 xal kimi oynanılır. Seçimlər isə püşkatma yolu ilə edilir.

Son olaraq muxtar respublikamızda idmanın inkişafı, kütləvi hal alması üçün görülən işlər və əldə olunan nəticələr göz qabağındadır, bu barədə saatlarla danışmaq olar. Qazanılan müvəffəqiyyətlər isə bütövlükdə, diyarımızın dinamik inkişafının mühüm tərkib hissəsidir. Bu baxımdan muxtar respublikanın belə inkişafı idmanda qazanılan uğurlarla bir paralellik təşkil edir. Ümumiyyətlə, Naxçıvan elə bir diyardır ki, burada bütün sahələrdə əldə olunan idman nailiyyətləri konsepsiyaya əsaslanır: şəhər, rayon və kəndlərdə gənclər sağlam şəkildə yetişdirilsin, onlar sağlam ruhda böyüsün.

***Bu gün şəhərimizin füsunkar simasını daha da gözəlləşdirən, sevimli mədəni istirahət ünvanı olmaqla yanaşı, müasir idman infrastrukturlu məkan kimi də diqqəti çəkən Sahil Parkı ilk böyük yarışa ev sahibliyi edəcək. Belə ki, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə gənc oğlan və qızlar arasında stolüstü tennis üzrə muxtar respublika birinciliyi keçiriləcək. Sabah isə nazirliyin təşəbbüsü ilə kort tennisi birinciliyinə start veriləcək. Birinciliklər Beynəlxalq Tennis Federasiyasının qaydalarına əsasən olimpiya sistemi üzrə təşkil olunacaq. Birinciliklərin keçirilməsində məqsəd tennis idman növünün muxtar respublikada inkişaf etdirilməsi, bu sahədə kütləviliyə nail olunması və gənclərin bu idman növünə olan marağının daha da artırılmasıdır.***

**✍ Ceyhun MƏMMƏDOV**

# 11 xəstəliyə qarşı peyvənd həyata keçirilir

*Uşaqlar arasında peyvəndləmə işləri təqvimə uyğun olaraq davam etdirilir. Məqsəd muxtar respublika ərazisində yaşayan və qeydiyyata alınan uşaqların bütünlüklə profilaktik peyvənd edilməsi və bununla bərabər, həmin uşaqların mövcud infeksion və digər xəstəliklərdən qorunmasıdır.*

Uşaqların peyvəndə cəlb olunması əhali arasında yoluxucu epidemiyaların qarşısını almağa xidmət edir. Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının Poliklinika şöbəsinin müdiri Şəmsi Əsgərov bildirir ki, uşaq infeksion xəstəliklərinin qarşısının alınmasında profilaktik peyvəndlər xüsusi yer tutur. Azərbaycan Respublikasının Milli Peyvənd Proqramına uyğun olaraq bu gün muxtar respublikada 11 xəstəliyə qarşı peyvənd həyata keçirilir.

Peyvənd təqviminə əsasən 1 yaşa qədər uşaqlara 5 peyvənd edilir. Doğum evində yeni doğulanlara 12 saat ərzində hepatit B-yə, 4-7 gün ərzində poliomielit və vərəm əleyhinə (BSJ) peyvənd edilir. Yaşadığı ərazi üzrə sahə həkimi tərəfindən 2 aylığından başlayaraq 6 yaşına qədər tam sağlam uşaqlara təqvimə uyğun peyvəndlər aparılır.

İkiaylıq uşaqlara Ümumdünya Səhiyyə Təşkilatının sertifikatını almış 5 komponentli vaksin vurulur. Bu vaksin Hib infeksiyasının törətdiyi çox ciddi yoluxucu – pnevmoniya, sepsis, epiqlotit, septisemiya, septikli artrit, osteomielit, abses, perikardit, meningit xəstəliklərinə qarşı immunitet yaradır.

Bir yaşa qədər uşağa 4 dəfə – doğum evində, 2 aylığında, 3 və 4-cü aylarında poliomielit damcısı verilir. Sonra 18 aylığında 5-ci peyvəndi alır. 5 peyvənd alan uşaqda poliomielitə qarşı immunitet yaranır və xəstəliyə yoluxmur.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın qəbul olunması bu sahədə görülən işlərə təkan verib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Kursantlar birincilik uğrunda mübarizə aparıblar



*Naxçıvan Muxtar Respublika Stadionunda 15 İyun – Milli Qurtuluş Günü münasibətilə Heydər Əliyev adına Hərbi Liseyin kursantları arasında yüngül atletika üzrə şəhər birinciliyi keçirilib.*

Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyası, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Heydər Əliyev adına Hərbi Liseyin birgə təşkilatçılığı ilə keçirilən birinciliyin yekununa əsasən Ramazan Ələkbərov, Nicat Əliyev, Malik Zeynibəyli və İsmayıl Abbaslı müvafiq olaraq 100, 200, 400 və 800 metr məsafədə finiş xəttinə hamıdan öndə çatıblar.

Sonda yer tutan və fərqlənən idmançılar mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Şərur rayonu, Kosacan kəndində yaşamış Cəfərov Qəşəm Cəfərqulu oğlunun adına olan JN-123A inventar nömrəli, 10213028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 432